## "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNDƏN UŞAQLARIN AİLƏLƏRƏ VERİLMƏSİ (DE-İNSTİTUSİONALİZASİYA) VƏ ALTERNATİV QAYĞI SAHƏSİNDƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏR

"Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın icrası olaraq 2012-ci ildə bir sıra tədbirlər həyata keçirilmişdir.

Dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş planın icrası olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 22 iyun tarixli qərarına əsasən, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1 nömrəli və 3 nömrəli xüsusi internat məktəbləri şagird kontingentinin azalması səbəbindən birləşdirilmiş, 2012-ci il 6 dekabr tarixli qərara əsasən isə, Qusar şəhər internat məktəbi ləğv edilərək bazasında Qusar şəhər peşə-liseyi yaradılmışdır. Beləliklə, 2008-ci ildə ölkə üzrə dövlət uşaq müəssisələrinin sayı **55** olduğu halda, Dövlət Proqramı çərçivəsində görülən tədbirlər nəticəsində müəssisələrin sayı **42-ə** enmişdir.

Dövlət Proqramının icrası olaraq valideyn himayəsindən məhrum olmuş uşaqların ailədə yaşamaq hüququnun təmin edilməsi məqsədi ilə Təhsil Nazirliyi ilə Avstriyanın "Hilfsverk Avstriya Beynəlxalq" təşkilatı arasında imzalanmış "Yerli hakimiyyət orqanları ilə qeyri-hökumət təşkilatları arasında himayədar (foster) qayğı və ailə əsaslı xidmətlər üzrə əməkdaşlıq modelinin işlənib hazırlanması" layihəsi çərçivəsində Təhsil Nazirliyi tərəfindən valideyn himayəsindən məhrum olmuş və daim müəssisədə yaşayan **10 nəfər** uşaq üçün ailə tipli kiçik qrup evi tikilmiş və uşaqların istifadəsinə verilmişdir. Bununla yanaşı, Xəzər rayonu ərazisindəki müəssisələrdə yaşayan uşaqlar içərisindən himayədar ailələrə veriləcək **50 nəfər uşaq** seçilmişdir. Rayon ərazisində aparılmış təbliğat kampaniyası nəticəsində himayədar ailə olmaq istəyən **50-dən artıq namizəd** ailənin qeydiyyatı aparılmışdır. Aparılmış maliyyə təhlilinə əsasən, himayədar ailəyə uşağın saxlanması üçün ayda **120 manat**, qayğının göstərilməsi müqabilində isə **50 manat** həcmində əmək haqqı verilməsi ilə bağlı təklif irəli sürülmüşdür. Himayədar ailə olmaq istəyən şəxslərə təlimlərin keçirilməsi üçün tədris proqramı hazırlanmışdır. Təlimlər Xəzər rayonunda istifadəyə verilmiş Ailə Təlim və Məsləhət Mərkəzində keçirilir.

Yaradılmaqda olan yeni himayədar (foster) qayğı xidmətlərinin fəaliyyətini tənzimləyən "Himayədar (Foster) Ailə Haqqında Əsasnamə" və "Ailə Tipli Kiçik Qrup Evi haqqında Nümunəvi Nizamnamə" baxılması və təsdiq edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Uşaqlarına qayğı göstərə bilməyən ailələrin və onların uşaqlarının rifahının yaxşılaşdırılması, uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədi ilə yerlərdə uşaqlar və ailələrə dəstək xidmətlərinin yaradılması, risk qrupundan olan uşaqlar və ailələrə arasında sistemli preventiv tədbirlərin görülməsi, qarşıya çıxan problemlərin həllinə kompleks yanaşma ilə onların operativ aradan qaldırılması, uşaqların belə müəssisələrə daxil olmasına ciddi nəzarətin təmin edilməsinin nəticəsi olaraq ölkə üzrə ümumilikdə **589 nəfər uşağın** dövlət uşaq müəssisələrinə düşməsinin qarşısı alınmışdır.

2012-ci ildə Təhsil Nazirliyinin övladlığa götürülən uşaqların mərkəzləşdirilmiş siyahısında olan **10 nəfər uşaq** övladlığa verilmişdir.

Dövlət Proqramı çərçivəsində "Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi" pilot layihəsinin icrası istiqamətində valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə təlim-tərbiyə alan uşaqların ailələrinə verilməsi üçün uşaqlar və onların ailələrinin fərdi qiymətləndirilməsi davam etdirilmişdir. Uşaqların ailələrinin

himayəsinə qaytarılması ilə bağlı onların ailələrinin və ya qohumlarının yaşadığı rayonlara səfərlər edilərək Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclasında bu uşaqların ailələrinə qaytarılması məsələlərinə baxılmışdır. Görülən işlər nəticəsində cari ildə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbləri və uşaq evlərində yaşayan **123 nəfər uşaq** Rayon və Şəhər İcra Hakimiyyətlərinin sərəncamı ilə həmin müəssisələrdən bioloji ailələrinin və yaxın qohumlarının himayəsinə qaytarılmışdır.

Dövlət Proqramının icrası olaraq görülən tədbirlər nəticəsində, ümumilikdə ölkə üzrə dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqların sayı azalmış, **2011-ci ildəki 9776 nəfərdən 2012-ci ildə 8336 nəfərə** enmişdir.




Uşaq evlərindən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəblərindən ayrılmış gənclərin münasib işlə və yaşayış sahəsi ilə təmin edilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflər göndərilmişdir. Təhsil Nazirliyinin müraciəti əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş və yaşayış yeri olmayan məzunlar üçün birotaqlı **120 mənzillik** binanın inşa edilməsi ilə bağlı müvafiq tədbirlər görülür.

Eyni zamanda, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar habelə onların arasından olan şəxslərin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli formada təhsil aldıqları zaman təhsil haqqından azad olunması ilə bağlı "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələrin edilməsi barədə Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət olunmuşdur. Qeyd olunan məsələyə hal-hazırda Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən baxılır.

Dövlət Proqramının icrası olaraq dövlət uşaq müəssisləri və oradakı uşaqlar barədə hər 3 aydan bir yenilənən məlumat bazası yaradılmışdır. Məlumat bazasının əsasında dövlət uşaq müəssisələri ilə Təhsil Nazirliyi arasında operativ informasiya mübadiləsinin, müəssisədə

təhsilin və uşaqlara göstərilən qayğı xidmətlərinin səviyyəsinin mərhələlər üzrə dinamikasının analitik və qrafik təhlilinin aparılmasını təmin edən elektron idarəetmə sisteminin yaradılması işinə başlanılmışdır.

Dövlət Proqramının icrası üzrə Tədbirlər Planına əsasən 2012-ci ildə mütəxəssislərin, beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə konfranslar, dəyirmi masalar keçirilmiş, əhalinin maarifləndirilməsi üçün televiziya kanallarımda xüsusi verilişlər təşkil olunmuş qəzet, jurnal və elektron informasiya vasitələrində məqalələr verilmiş, təlim vəsaitləri və digər məlumatlar çap olunaraq dövlət uşaq müəssisələrinə, aidiyyəti dövlət qurumlarına və təşkilatlara çatdırılmışdır. Bununla yanaşı, Dövlət Proqramının icrası olaraq yaradılmış ailə əsaslı sosial xidmətlər mərkəzlərinin fəaliyyətinə dair bukletlər, sosial yönümlü reklam çarxları və uşaqların ailələrinin himayəsinə qaytarılması mexanizmini əks etdirən sənədli film çəkilmişdir.